QANUN № 02 (376), 2026, s. 204-212

**Babayeva Nərmin Sahib qızı,**
Bakı Dövlət Universitetinin Cinayət hüququ və kriminologiya kafedrasının
II kurs magistrantı
E-mail: bnrmin@list.ru

**UOT 343.264**
**DOI: https://doi.org/10.30546/2218-9130.043.2026.611**

# AZƏRBAYCANLILARA QARŞI TÖRƏDİLƏN DEPORTASİYA ƏMƏLLƏRİ İLƏ CİNAYƏT-HÜQUQİ MÜBARİZƏNİN PROBLEM MƏSƏLƏLƏRİ

***Açar sözlər:*** *deportasiya, soyqırımı, etnik təmizləmə, insanlıq əleyhinə cinayətlər, cinayət məsuliyyəti, Qərbi Azərbaycan, qaçqınlar.*

***Ключевые слова:*** *депортация, геноцид, этническая чистка, преступления против человечности, уголовная ответственность, Западный Азербайджан, беженцы.*

***Keywords:*** *deportation, genocide, ethnic cleansing, crimes against humanity, criminal accountability, Western Azerbaijan, refugees.*

## GİRİŞ

Azərbaycan xalqı XX əsrdə öz tarixi torpaqlarında bir neçə dəfə kütləvi zorakı deportasiyaya məruz qalmışdır. Tarixi mənbələr və arxiv sənədləri göstərir ki, bu deportasiya dalğaları məqsədyönlü şəkildə həyata keçirilmiş, nəticədə minlərlə Azərbaycan türkü ata-baba yurdunu tərk etmək məcburiyyətində qalmışdır. İlk belə faciəli hadisələr 1905-1906-cı illərdə baş vermiş, daha sonra 1918-1920-ci illərdə erməni silahlı dəstələrinin və dağılmaqda olan Çar Rusiyası qoşunlarının azərbaycanlı əhaliyə qarşı törətdiyi qırğınlar zamanı yüz minlərlə insan öldürülmüş, yaralanmış və didərgin salınmışdır. Təkcə 1918-ci ilin qanlı Mart hadisələri zamanı Bakı və ətraf bölgələrdə on minlərlə azərbaycanlı qətlə yetirilmiş, İrəvan quberniyasında isə 135 mindən çox soydaşımız öz yurd-yuvasından qovularaq qaçqına çevrilmişdir [1].

XX əsrin ortalarında, Stalin hakimiyyəti dövründə azərbaycanlıların öz tarixi torpaqlarından planlı surətdə çıxarılması siyasəti davam etdirildi. SSRİ Nazirlər Sovetinin 23 dekabr 1947-ci il tarixli qərarı ilə 1948-1953-cü illərdə Ermənistan SSR-də yaşayan azərbaycanlı əhali kütləvi şəkildə Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməli idi. Həmin qərarın icrası zamanı ciddi qanunsuzluqlara yol verilmiş, nəzərdə tutulan 100 min nəfər əvəzinə daha çox – təxminən 150 min azərbaycanlı zorla öz eveşiyindən çıxarılaraq yeni və əksər hallarda ağır şəraitli bölgələrə yerləşdirilmişdir. Bu deportasiya nəticəsində yüzlərlə insan, xüsusən yaşlılar, qadınlar və uşaqlar yollarda çətin iqlimə və ağır şəraitə dözməyərək həlak olmuşdur. Deportasiya olunanların böyük əksəriyyəti öz doğma yurdlarına bir daha dönə bilmədi.

Azərbaycanlılara qarşı deportasiyaların son və ən geniş miqyaslı mərhələsi XX əsrin sonunda baş verdi. 1980-ci illərin sonlarında erməni millətçi dairələri tərəfindən irəli sürülən

qanunsuz ərazi iddiaları fonunda Ermənistan SSR-də yaşayan bütün azərbaycanlı əhali oradan tamamilə çıxarıldı. 1988-1991-ci illərdə Ermənistan ərazisindəki 185 kənd və şəhərdə yaşayan təxminən 200-250 min azərbaycanlı sistemli şəkildə təhdid və zorakılıq kampaniyası ilə qovuldu və nəticədə Ermənistan dövləti faktiki mono-etnik ölkəyə çevrildi. Bu proses zamanı dinc əhaliyə qarşı cinayətlər də törədilmiş, yalnız 1988-ci ilin sonu–1991-ci illər ərzində ermənilər tərəfindən xüsusi amansızlıqla qətlə yetirilən azərbaycanlıların sayı yüzlərlə olmuşdur. Bir sözlə, iki əsr ərzində erməni şovinist dairələrinin planlaşdırdığı "azərbaycanlılarsız Ermənistan" siyasəti addım-addım reallığa çevrilmişdir. Bu siyasətin tərkib hissəsi kimi, azərbaycanlılara məxsus yaşayış məntəqələrinin adları dəyişdirilmiş, mədəni-tarixi abidələr dağıdılıb məhv edilmiş, xalqımızın izlərinin silinməsinə çalışılmışdır. Deportasiya nəticəsində doğma torpaqlarından didərgin düşən on minlərlə azərbaycanlı isə qaçqın və məcburi köçkün həyatı yaşamağa məcbur qalmışdır.

Tarixən baş vermiş bu hadisələr təkcə siyasi məsələ deyil, həm də ağır cinayət xarakterli əməllərdir. Dinc əhalinin milli mənsubiyyətinə görə kütləvi şəkildə qovulması, evlərin, kəndlərin dağıdılması, günahsız insanların qətlə yetirilməsi və işgəncələrə məruz qalması faktları mötəbər mənbələr tərəfindən sənədləşdirilmişdir. Azərbaycanlılara qarşı törədilmiş deportasiya əməlləri öz miqyasına, planlı şəkildə həyata keçirilməsinə və doğurduğu fəsadlara görə beynəlxalq hüquq nöqteyi-nəzərindən sülh və bəşəriyyət əleyhinə cinayətlərin tərkibinə uyğun gəlir. Xüsusilə, 1948-1949-cu illərdə qəbul olunmuş Soyqırımı Konvensiyası və Cenevrə Konvensiyaları kimi çoxsaylı beynəlxalq hüquqi aktlar mülki əhalinin qəsdən məhv edilməsini, zorla köçürülməsini və digər bu kimi əməlləri qadağan edir.

Deportasiya – əhalinin zorla öz yurdundan başqa yerə köçürülməsi  XXI əsrdə beynəlxalq cinayət sayılır və bu hal Roma Statutunun 7-ci maddəsində insanlıq əleyhinə cinayət kimi ayrıca göstərilmişdir [5]. Azərbaycanlıların tarixi torpaqlarından qovulması kampaniyaları da məhz bu qəbildən olan ağır cinayətlər siyahısındadır. Bu məqalənin məqsədi, azərbaycanlılara qarşı törədilmiş deportasiya cinayətlərinin tarixi və hüquqi aspektlərini araşdırmaq, onların beynəlxalq hüquq və Azərbaycan qanunvericiliyi prizmasından qiymətləndirilməsini vermək, eləcə də həmin cinayətlərlə mübarizədə mövcud problemləri təhlil edərək mümkün həll yollarını müzakirə etməkdir.

## DEPORTASİYA AKTLARININ TARİXİ VƏ HÜQUQİ QİYMƏTLƏNDİRİLMƏSİ

Azərbaycanlılara qarşı həyata keçirilmiş deportasiya aktlarının hər biri ayrı-ayrılıqda ağır cinayət olsa da, bütövlükdə bu hadisələr müəyyən bir siyasi-hüquqi məqsədə – etnik tərkibin zorakı yollarla dəyişdirilməsinə xidmət edirdi. İlk deportasiya dalğaları zamanı – XX əsrin əvvəllərində – Azərbaycan türklərinin tarixi Qərbi Azərbaycan torpaqlarında (indiki Ermənistan ərazisində) sayca üstün mövqedə olması erməni millətçilərini narahat edən amil idi. Tarixçilərin qeydinə görə, hələ Çar Rusiyası dövründə İrəvan quberniyasında azərbaycanlılar əhalinin əhəmiyyətli hissəsini təşkil edirdi [4]. 1905-1906-cı illərdə baş verən erməni-müsəlman toqquşmaları zamanı ilk dəfə azərbaycanlıların kütləvi şəkildə köç etməsi halları müşahidə olundu. Ardınca 1918-ci ildə Erməni Milli Şurası tərəfindən elan olunmuş Ararat Respublikasının (Ermənistanın) ərazisində yaşayan türk-müsəlman əhali həmin yeni dövlətin etnik-homogen siyasəti çərçivəsində sistemli şəkildə sıxışdırıldı. 1918-ci ilin yaz və yay aylarında İrəvan quberniyasının bir çox kənd və qəsəbələri hücuma məruz qaldı, əhali kütləvi qırğınlarla dədə-baba torpaqlarından çıxarıldı. Azərbaycan Respublikası Baş Prokurorluğunun arxivində saxlanılan materiallara əsasən, təkcə 1918-ci ilin əvvəllərinə qədər

İrəvan qəzasında 32, Eçmiədzin qəzasında 84, Novo-Bəyazid qəzasında 7 və Sürməli qəzasında 75 azərbaycanlı kəndi yerlə-yeksan edilmiş, ümumilikdə 198 yaşayış məntəqəsi dağıdılaraq əhalisi qırğınlar və zorakı deportasiya ilə üzləşmişdir [6]. Bu hadisələr zamanı on minlərlə dinc sakin ya öldürülmüş, ya da bütün var-dövlətini geridə qoyaraq qaçmağa məcbur olmuşdur. Beləliklə, 1918-1920-ci illər ərzində tarixən azərbaycanlıların yurd-yuvası olan İrəvan bölgəsinin demoqrafik mənzərəsi kəskin şəkildə dəyişdirildi. Yeni yaranmış Ermənistan Respublikasında azərbaycanlı icma faktiki olaraq məhv edildi və sağ qalanlar qaçqın olaraq Azərbaycanın digər bölgələrinə və ya qonşu ölkələrə sığındı.

Sovet hakimiyyəti illərində azərbaycanlılara qarşı açıq zorakı deportasiya siyasəti bir müddət səngisə də, gizli formada davam etdirildi. Xüsusilə, II Dünya müharibəsindən sonra erməni siyasi dairələri imperial mərkəzi inandırmağa çalışırdı ki, guya Ermənistan SSR-in iqtisadi inkişafı üçün xaricdə yaşayan erməni diasporunun köçürülməsi lazımdır, bunun üçün isə yerli azərbaycanlı əhalinin oradan çıxarılması gərəkdir. Nəticədə Stalin hökuməti 23 dekabr 1947-ci ildə "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" qərar qəbul etdi [8]

Bu qərar rəsmi surətdə "könüllü miqrasiya" kimi təqdim edilsə də, əslində insanlara seçim şansı verilmirdi. 1948-1953-cü illərdə Ermənistan SSR-in 20-dən çox rayonunda yüzlərlə kənd boşaldıldı və azərbaycanlı ailələr vaqonlara doldurularaq, Azərbaycanın müxtəlif bölgələrinə göndərildi. Tarixi sənədlər göstərir ki, köçürmə prosesi zorakı şəkildə icra olunmuş, hətta planlaşdırılandan xeyli artıq – təqribən 150 min azərbaycanlı öz doğma el-obasından çıxarılmışdır [3, s. 48–50]. Bu deportasiya nəticəsində çoxlu sayda insan yollarda, xüsusən də Naxçıvandan və Zəngəzur dağlıq bölgəsindən gətirilən köçkünlər arasında, yeni iqlimə tablaşa bilməyərək həlak oldu. Azərbaycan tarixçiləri vurğulayırlar ki, həmin dövrdə Ermənistan ərazisində demoqrafik üstünlük qazanan ermənilərin bu addımı azərbaycanlıların tarixi torpaqlarından mərhələli şəkildə tam çıxarılması planının tərkib hissəsi idi [7, s. 2332–2335]. Doğrudur, 1953-cü ildə Stalin öldükdən sonra deportasiya kampaniyası dayandırıldı və bəzi ailələr gizli şəkildə geri dönməyə çalışdı. Lakin artıq demoqrafik tarazlıq ciddi surətdə dəyişmiş, bir çox kəndlər boş qalmış, yaxud gəlmə ermənilərlə məskunlaşdırılmışdı. Ümumilikdə, 1948-1953-cü illər deportasiyası azərbaycanlıların Qərbi Azərbaycandakı yüzillik maddi və mənəvi irsinə ağır zərbə vurdu.

1980-ci illərin sonlarında, Sovet İttifaqının zəiflədiyi bir vaxtda erməni millətçiləri tarixi fürsətdən istifadə edərək, Dağlıq Qarabağ bölgəsini Azərbaycandan qoparmağa yönəlmiş separatçı hərəkata başladılar. Bununla paralel şəkildə, Ermənistan SSR-in rəhbərliyi respublika ərazisində qalan son azərbaycanlı əhaliyə qarşı planlı təzyiq və terror kampaniyasına start verdi. 1987-ci ilin sonlarından etibarən Ermənistanın müxtəlif bölgələrində azərbaycanlılara qarşı hücumlar, qətllər və evlərin yandırılması hallarıı artmağa başladı. 1988-ci ilin fevralında azərbaycanlı əhaliyə qarşı açıq zorakılıq aktları baş verdi və bu, az qala zəncirvari reaksiya kimi bütün respublikaya yayıldı. Nəticədə 1988-ci ilin sonu–1989-cu ilin əvvəlində Ermənistanda yaşayan yüz minlərlə azərbaycanlı ailəsi doğma torpaqlarını tərk etməyə məcbur oldu. Onlar avtobus karvanları, yük qatarları və piyada yollarla Azərbaycan SSR-in müxtəlif bölgələrinə sığındılar. Bu hadisələr zamanı silahlı erməni dəstələri tərəfindən günahsız insanlara qarşı qətllər də törədildi. Məsələn, 1988-ci ilin noyabr-dekabr aylarında Gümrü (Leninakan) və ətrafında azərbaycanlı qaçqın karvanlarına hücum edilməsi, çoxsaylı şəxslərin öldürülməsi

faktları sənədləşdirilmişdir. 1991-ci ilin yazında isə Ermənistan hökuməti qalan son azərbaycanlı kəndlərinin (Nüvədi kimi yaşayış məntəqələri daxil olmaqla) boşaldılması əməliyyatını reallaşdırdı. Beləliklə, 1991-ci ilin sonunadək tarixən Qərbi Azərbaycan adlandırılan indiki Ermənistan ərazisində bir nəfər belə azərbaycanlı qalmadı. 1988-1991-ci illərdə repatriasiya adı altında gerçəkdə etnik təmizləmə həyata keçirildi və bu prosesin nəticələri – on minlərlə qaçqının acınacaqlı durumu – hələ uzun illər özünü göstərdi.

Hazırda həmin qaçqınlar Azərbaycanın müxtəlif bölgələrinə dağılmış vəziyyətdə yaşayır və "Qərbi Azərbaycan İcması" adı altında öz tarixi torpaqlarına qayıtmaq ümidi ilə birləşiblər.

Yuxarıda təsvir olunan deportasiya aktları mahiyyət etibarilə eyni məqsədə xidmət edirdi: azərbaycanlıların tarixi torpaqlarından zorakı yolla çıxarılıb, həmin ərazilərin etnik tərkibinin birtərəfli qaydada dəyişdirilməsi. Bu əməllər insanlıq əleyhinə cinayətlərin bariz nümunələridir [2].

Deportasiya – yəni müəyyən etnik və ya milli qrupun planlı surətdə öz yaşayış yerindən qovulması – 1945–1946-cı illərdə Nürnberq Tribunalında nasistlərin əməllərinə dair ittihamnamədə də ayrıca cinayət hesab edilmişdir. 1948-ci il "Soyqırımı cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında" Konvensiya isə milli və etnik qrupların tam və ya qismən məhv edilməsinə yönələn hərəkətləri, o cümlədən qəsdən qətliamları, ciddi xəsarətlər yetirilməsini və qrupun fiziki varlığının sarsıdılmasına yönələn tədbirləri soyqırımı cinayəti elan edir [13].

Erməni millətçilərinin azərbaycanlıları öz tarixi torpaqlarından təmizləmə siyasəti məhz sistemli terror, qətllər və zorakı köçürmələr vasitəsilə həyata keçirilmişdir ki, bunun nəticəsində həmin ərazilərdə Azərbaycan xalqının varlığına faktiki son qoyulmuşdur. Azərbaycan dövləti 1998-ci ildə "Azərbaycanlıların soyqırımı haqqında" xüsusi bəyanat qəbul edərək, 1918-ci ilin Mart qırğınlarını və ondan əvvəlki dövrlərdə xalqımıza qarşı törədilən kütləvi qətlləri soyqırımı aktı kimi tanıdı. Bundan əlavə, 18 dekabr 1997-ci il tarixində Ümummilli lider Heydər Əliyev tərəfindən imzalanmış fərmanla 1948–1953-cü illər deportasiyasına ilk dəfə siyasi-hüquqi qiymət verildi [14].

Fərmanda açıq şəkildə vurğulandı ki, azərbaycanlıların Ermənistan SSR-dən kütləvi sürgün edilməsi hüquqi baxımdan qanunsuz və insanlıq əleyhinə cinayət xarakterli bir siyasət idi. Bu tarixi-siyasi qiymət aktları Azərbaycan dövlətinin öz xalqına qarşı törədilən cinayətləri unutmadığının və onları hüquqi müstəviyə çıxarmaq əzmində olduğunun göstəricisi idi [12].

## CİNAYƏT-HÜQUQİ MÜBARİZƏ TƏDBİRLƏRİ VƏ MÖVCUD PROBLEMLƏR

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra azərbaycanlılara qarşı törədilmiş beynəlxalq cinayətlərə görə məsul şəxslərin cəzalandırılması istiqamətində mühüm addımlar atılmışdır. İlk növbədə milli qanunvericilik bazası yenilənmiş, 2000-ci ildə qüvvəyə minmiş Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə sülh və insanlıq əleyhinə cinayətlərə dair ayrıca bölmə əlavə edilmişdir. Cinayət Məcəlləsinin 7-ci bölməsində soyqırımı (maddə 103), əhalini deportasiya etmə və ya məcburi köçürülmə (maddə 107), təqib (maddə 109), işgəncə (maddə 113), müharibə qanunlarını və adətlərini pozma (maddə 115) və digər bənzər cinayət tərkibləri təsbit olundu. Bu maddələrin mövcudluğu Azərbaycan dövlətinə imkan verir ki, belə cinayətləri törətmiş şəxslər müəyyən edildikcə milli qanunvericilik əsasında ittiham olunsunlar. Əlbəttə ki, 1990-cı illər ərzində Ermənistanla davam edən müharibə vəziyyəti, daxili siyasi vəziyyətin mürəkkəbliyi və qaçqın probleminin miqyası nəzərə alınarsa, həmin dövrdə bütün diqqət daha çox humanitar məsələlərə yönəlmişdi. Lakin atəşkəs əldə olunduqdan sonra hüquq-mühafizə orqanları tədricən tarixi cinayət işlərinin açılmasına başladılar.

Azərbaycan Respublikası Baş Prokurorluğunun arxiv materiallarına istinadən 1992-ci ildə Xocalı soyqırımı faktı üzrə dərhal cinayət işi qaldırılmış və istintaq aparılmışdır. Həmin araşdırmalar nəticəsində məlum olmuşdur ki, 1992-ci ilin 25-26 fevral gecəsi Xocalı şəhərində dinc azərbaycanlı əhaliyə qarşı Ermənistan silahlı qüvvələri və onlara dəstək verən 366-cı motoatıcı alayın hərbçiləri misli görünməmiş qəddarlıqla cinayətlər törətmişlər. İstintaq zamanı 2 mindən çox şahid və zərərçəkmiş şəxs dindirilib, 800-dən artıq ekspertiza keçirilib, çoxsaylı maddi sübutlar toplanmışdır [6]. Toplanmış materiallar əsasında müəyyən edilmişdir ki, Xocalı şəhərinin mühasirəyə alınması, dinc əhalinin atəşə tutulması və əsir götürülənlərə işgəncə verilməsi kimi hərəkətlər nəticəsində 613 nəfər azərbaycanlı, o cümlədən qadınlar, uşaqlar və qocalar xüsusi amansızlıqla qətlə yetirilmişdir [10]. Bu əməllərə görə 38 nəfər – əsasən 366-cı alayın hərbi qulluqçuları və erməni silahlı dəstələrinin üzvləri – soyqırımı (Cinayət Məcəlləsi, maddə 103), əhalinin deportasiyası (maddə 107), işgəncə (maddə 113) və müharibə qanunlarını və adətlərini pozma (maddə 115) maddələri ilə təqsirləndirilərək barələrində cinayət işi başlanmışdır. Həmin şəxslərin əksəriyyəti qiyabi olaraq həbs edilmiş və beynəlxalq axtarışa verilmişdir [6, s. 15–17]. Azərbaycan İnterpol xətti ilə onların tutulması üçün müraciətlər etsə də, təəssüf ki, indiyədək həmin təqsirkarların böyük bir qismini ədalət mühakiməsinə cəlb etmək mümkün olmayıb. Buna səbəb, cinayətkarların Ermənistan və ya digər ölkələrdə gizlənməsi, Ermənistan dövlətinin onlara himayədarlıq etməsi və ekstradisiya tələbini rədd etməsidir.

Uzun illər ərzində azərbaycanlılara qarşı törədilmiş cinayətlərin cəzasız qalması problemi Azərbaycan cəmiyyətində haqlı narazılıq doğurmuşdur. Son dövrlərdə dövlət bu məsələyə daha prinsipial yanaşmağa başlamışdır. Xüsusilə 44 günlük Vətən müharibəsində (2020-ci il) əldə edilən qələbədən sonra Azərbaycan hakimiyyəti tarixi ədalətin bərpası üçün yeni imkanlar əldə etmişdir. 2021-ci ildə Azərbaycan Ermənistanı beynəlxalq məhkəməyə, BMT-nin Beynəlxalq Ədalət Məhkəməsinə verərək, irqi ayrı-seçkiliyin qarşısının alınması haqqında Konvensiyanın pozulması ilə bağlı iddia qaldırmışdır. Həmin iddiada Ermənistanın azərbaycanlılara qarşı onillər boyu apardığı etnik təmizləmə siyasətinin də hüquqi qiymət alması tələbi irəli sürülmüşdür. Bunun nəticəsi olaraq, 7 dekabr 2021-ci ildə Beynəlxalq Ədalət Məhkəməsi hər iki tərəfə münasibətdə müvəqqəti tədbirlərə dair qərar qəbul etmiş, o cümlədən Ermənistanı azərbaycanlılara qarşı irqi nifrət təbliğatını dayandırmağa çağırmışdır. Bu qərar dolayısı ilə erməni tərəfinin azərbaycanlıların öz doğma yurdlarına geri dönməsi qarşısında maneələr yaratmasını və mədəni irsi məhv etməsini pisləyirdi. Bununla yanaşı, Azərbaycan Respublikası Baş Prokurorluğu da tarixi cinayət işlərinin istintaqını dərinləşdirməkdədir. 30 mart 2023-cü il tarixində Baş Prokurorun xüsusi qərarı ilə 1918-ci ildən başlayaraq azərbaycanlılara qarşı törədilmiş soyqırımı və deportasiya faktları üzrə geniş miqyaslı cinayət işi açılmışdır. Bu iş çərçivəsində 1918-ci ilin mart qırğınları, 1948-1953-cü il sürgünləri, 1988-1992-ci illərin etnik təmizləmə siyasəti kimi epizodlar birləşdirilərək, hərtərəfli istintaq aparılır. Baş Prokurorluğun məlumatına görə, həmin cinayət işi Azərbaycan Cinayət Məcəlləsinin 103-cü (soyqırımı), 107-ci (əhalini deportasiya etmə və ya məcburi köçürmə), 109-cu (təqib), 120.2.4-cü (xüsusi amansızlıqla adamöldürmə) və 120.2.7-ci (iki və daha çox şəxsi öldürmə) maddələri ilə başlanmışdır [7, s. 82–84]. İstintaq çərçivəsində xarici dövlətlərin müvafiq qurumlarına hüquqi yardım müraciətləri göndərilir, beynəlxalq təşkilatlarla əməkdaşlıq edilir. Bu addım Azərbaycan dövləti tərəfindən uzun illərdən bəri cəzasız qalmış cinayətlərin hüquqi müstəvidə təqib olunması

istiqamətində atılmış ən əhatəli tədbirlərdən biridir.

Bununla yanaşı, Azərbaycan deportasiya qurbanlarının hüquqlarının bərpası üçün siyasi və diplomatik müstəvidə də fəal iş aparır. Azərbaycan Respublikası Prezidentinin təşəbbüsü ilə 2022-ci ildə "Qərbi Azərbaycan İcması" adlı qurum yenidən təşkil edilmiş və Ermənistandan qovulmuş azərbaycanlıların "Qayıdış Konsepsiyası" hazırlanmışdır.

2023-cü ilin yanvar ayında ictimaiyyətə açıqlanan bu Konsepsiya Qərbi Azərbaycandan deportasiya edilmiş soydaşlarımızın təhlükəsiz və ləyaqətli şəkildə öz yurdlarına qayıtmasını təmin etmək üçün yol xəritəsini müəyyən edir. Konsepsiyada beynəlxalq hüququn müvafiq norma və prinsiplərinə əsaslanaraq, qaçqınların geri dönüş hüququnun danılmaz olduğu vurğulanır və bununla bağlı Ermənistanla dialoqa, beynəlxalq vasitəçilərin cəlbinə çağırış edilir [9, s. 41–44]. Azərbaycan dövləti bu konsepsiyanı reallaşdırmaq üçün diplomatik səylər göstərir, beynəlxalq təşkilatlar qarşısında Ermənistanın üzərinə öz vətəndaşları olmuş azərbaycanlıların geri dönüşünə şərait yaratmaq öhdəliyi qoyulmasını tələb edir. Bu istiqamətdə görülən işlərin tərkib hissəsi kimi, 2023-cü ildə Ermənistanda mövcud etnik azlıqlar (o cümlədən kürdlər) məsələsi beynəlxalq tədbirlərdə qaldırıldı, mono-etnik vəziyyətin qeyri-qanuni nəticələri müzakirə edildi [11].

Lakin bütün bu səylərə baxmayaraq, azərbaycanlılara qarşı törədilmiş deportasiya cinayətlərinin cəzasız qalması problemi hələ də tam həllini tapmayıb. Bu sahədə əsas problemlərdən biri cinayətkarların ədalət mühakiməsindən yayınmasıdır. Məsələn, 1990-cı illərin əvvəllərində Azərbaycan kəndlərində qətliamlarda iştirak etmiş bəzi şəxslər illər sonra müxtəlif ölkələrdə üzə çıxsa da onların çox cüzi bir qismini məsuliyyətə cəlb etmək mümkün olmuşdur. Ermənistan dövləti bu şəxsləri təhvil verməkdən imtina edir, onlara qarşı Azərbaycanda aparılan məhkəmə proseslərini "siyasi sifariş" adlandırır. İkili standartlardan əziyyət çəkən beynəlxalq mühit də təəssüf ki, bənzər cinayətlərə qarşı bərabər yanaşmır. 1915-ci il hadisələrinə görə türkləri ittiham edən bəzi ölkələr, azərbaycanlıların kütləvi qətl və deportasiyasına gəldikdə susqunluq nümayiş etdirir. Bu vəziyyət beynəlxalq hüququn universallığı prinsipinə ziddir və zərərçəkmiş icmada ədalətsizlik hissini daha da dərinləşdirir.

Cinayət-hüquqi mübarizənin digər mühüm çətinliyi zaman amilidir. Deportasiya və soyqırımı cinayətləri törədildikdən bəzən on illər sonra onların istintaqının aparılması obyektiv çətinliklər yaradır. Hadisələrin üzərindən uzun müddət keçməsi sübut toplamaqda, şahid ifadələri əldə etməkdə problemlər yaradır; bir çox şahidlər artıq həyatda deyil, sənədlər itib və ya tam aşkar edilməyib. Lakin beynəlxalq hüquqda belə cinayətlərə qarşı müddətin tətbiq olunmaması ("imprescriptibility") prinsipi mövcuddur. Yəni soyqırımı, deportasiya kimi insanlıq əleyhinə əməllər istənilən müddət sonra da aşkar olunsa, təqsirkarlar cəzalandırıla bilər. Azərbaycan da bu prinsipə əsaslanaraq, aradan uzun illər keçməsinə baxmayaraq, 1918-ci və 1948-ci illərin cinayətlərini yenidən araşdırır. Bu həm tarixi ədalətin bərpası, həm də gələcəkdə bənzər cinayətlərə yol verilməməsi üçün vacibdir.

Nəhayət, deportasiya qurbanlarının hüquqlarının bərpası məsələsi də mühüm problem kimi qalır. Hal-hazırda Ermənistandan deportasiya edilmiş azərbaycanlılar qaçqın statusunda həyatlarının böyük hissəsini keçirmişlər və onların doğma torpaqlara qayıtmaq hüququ hələ reallaşmayıb. Bu insanların mülkiyyət hüquqları, mənəvi və maddi zərərlərinin ödənilməsi məsələləri də açıq qalır. Beynəlxalq təcrübədə oxşar vəziyyətlər üçün (məsələn, Bosniya, Kipr münaqişələri sonrası) xüsusi mexanizmlər qurulmuş, qaçqınların qayıdışı və kompensasiyası

həyata keçirilmişdir. Azərbaycan Qərbi Azərbaycan icmasının timsalında bu istiqamətdə hüquqi əsasların mövcudluğunu vurğulayır. Xüsusilə Avropa İnsan Haqları Məhkəməsinin "Çıraqov və digərləri Ermənistana qarşı" (2015) qərarında Laçın rayonundan qovulmuş azərbaycanlıların mülkiyyət hüququnun pozulduğu tanınmışdır [15].

Bu kimi presedentlər qaçqın azərbaycanlıların da hüquqlarının tanınması üçün hüquqi zəmin yaradır. Lakin Ermənistan rəhbərliyi hələlik öz üzərinə düşən öhdəlikləri qəbul etmir və deportasiya qurbanlarının geri dönüş perspektivini rədd edir. Bu da problemi uzadan əsas amillərdəndir.

## NƏTİCƏ

Yekun olaraq deyə bilər ki, azərbaycanlılara qarşı törədilmiş deportasiya əməlləri tarixin unudulmuş səhifələrindən biri olsa da, onların hüquqi və siyasi nəticələri bu gün də aktuallığını qoruyur. On minlərlə insanın yalnız etnik mənsubiyyətinə görə doğma yurdlarından zorla qovulması faktı bəşəriyyət əleyhinə ağır cinayətdir və cəzasız qalmamalıdır. Azərbaycan dövləti və xalqı uzun illər çəkən ədalətsizliklə barışmamış, həqiqətin üzə çıxarılması və günahkarların cəzalandırılması üçün mübarizəni davam etdirmişdir. Bu mübarizə asan olmasa da, müəyyən nəticələr əldə edilmişdir. Artıq beynəlxalq aləmdə də Ermənistanda azərbaycanlıların yaşamamasının səbəbləri barədə haqq səsimizi eşidirlər. Nüfuzlu beynəlxalq nəşrlərdə deportasiya həqiqətlərini əks etdirən kitablar çap olunur, elmi məqalələr dərc edilir. 2025-ci ildə xarici tədqiqatçılarla birlikdə nəşr olunan "Unudulmuş sürgün" kitabı buna misaldır, bu əsər Qərbi Azərbaycanda azərbaycanlıların məruz qaldığı deportasiya siyasətini dünya ictimaiyyətinə çatdırır. Bundan əlavə, ölkə daxilində yeni cinayət işlərinin qaldırılması, arxiv materiallarının araşdırılması kimi addımlar tarixi ədalət naminə əhəmiyyətlidir. Əlbəttə, qarşıda hələ böyük vəzifələr durur. Deportasiya cinayətlərinə hüquqi qiymətin beynəlxalq səviyyədə də verilməsinə nail olmaq, BMT və digər qurumlarda müvafiq qətnamələrin qəbuluna çalışmaq lazımdır. Eyni zamanda, Ermənistanda zamanla formalaşmış etnik təmizləmənin nəticələrinin aradan qaldırılması, yəni qaçqınların geri dönüşü və birgəyaşayışın bərpası uzunmüddətli sülhün vacib şərtidir. Bunun üçün Ermənistan hökuməti üzərinə düşən məsuliyyəti dərk etməli, cinayətkarları qəhrəmanlaşdırmaqdan əl çəkərək ədalət naminə əməkdaşlığa hazır olmalıdır.

İki əsrdən çox davam edən faciəli hadisələr göstərir ki, cəzasızlıq yeni cinayətləri təşviq edir. Tarixdən dərs alınmazsa, oxşar fəlakətlərin təkrarlanması riski qalır. Ona görə də azərbaycanlılara qarşı deportasiya və soyqırımı cinayətlərinə qarşı cinayət-hüquqi mübarizə təkcə Azərbaycan üçün deyil, bütün dünya üçün əhəmiyyətlidir. Ədalətin zəfər çalması, günahsız qurbanların haqqının bərpası və gələcək nəsillərin belə faciələrlə üzləşməməsi naminə bu mübarizə davam etməlidir. Azərbaycan xalqı və dövləti bu yolda qətiyyətlidir və beynəlxalq ictimaiyyətdən də adekvat həmrəylik gözləyir. Nəhayət, ümid edilir ki, haqq-ədalət gec də olsa bərqərar olacaq, deportasiya qurbanlarının ruhu bir qədər rahatlıq tapacaq və Qərbi Azərbaycandan didərgin düşmüş soydaşlarımız öz doğma torpaqlarına qayıdaraq orada sülh və qarşılıqlı hörmət şəraitində yaşayacaqlar.

**İstifadə edilmiş ədəbiyyat siyahısı:**

1. Məcidli S. T. Azərbaycanlılara qarşı törədilən sülh və insanlıq əleyhinə cinayətlər (1918–2018-ci illər) (monoqrafiya). – Bakı: – 2018, – 271 s.

2. Məmmədov R., Allahverdiyev Ə. (2019). İnsanlıq əleyhinə cinayətlər (müsahibə). 1905.az portalı, 02.12.2019.

3. Qurbanlı A. Политика этнической чистки против азербайджанских тюрков в Армянской ССР и процесс ее реализации (1988–1991 гг.) / – Tarix və Onomastika jurnalı, – 2023. №3, – s.74–85.

4. Askerov A., & Gunter M. Forgotten Exile: The Deportations of Azerbaijanis by the Armenians in the Caucasus during the Twentieth Century. Leiden: Brill. 2025

5. Aliyev A. İ. Azerbaijan in the Target of International Crimes: Legal Analysis. Bakı: “Nurlar” nəşriyyatı, 2018, 176 s.

6. Bahramov C., Həsənov B., & Amrahov Z. The consequences of forced deportations: an archival analysis of the Azerbaijani population’s displacement from the Armenian SSR (1948–1955, 1988–1991). Lex Localis – Journal of Local Self-Government, 2025, 23(8), ss.1–22.

7. Baxşəliyev F.Deportations of Azerbaijanis From West Azerbaijan and the Concept of Return. Akademik Tarix və Düşüncə Dergisi, 2024, 11(4), ss.2328–2347.

8. Center of Analysis of International Relations (AIR Center) və AVİM (2024). Why are there no Azerbaijanis in the modern territories of Armenia? Bakı, 2024, 58 s.

9. Chiragov and Others v. Armenia, Application no. 13216/05, European Court of Human Rights (Grand Chamber), Judgment of 16 June 2015.

10. Həsənov A. “Genocide in Khojaly: causes, consequences and international recognition.” IRS Heritage, 2018, №5(37), s.38–45.

11. Qədimov A. The Right to Return of the Western Azerbaijani Community: Legal Foundations and Comparative Perspectives. SSRN Electronic Journal, 15 Sep 2025.

12. United Nations General Assembly Convention on the Prevention and Punishment of the Crime of Genocide (09.12.1948).

13. dergipark.org.tr/tr/download/article-file/3987900#

14. https://1905.az/insanliq-%C9%99leyhin%C9%99-cinay%C9%99tl%C9%99r/#

15. https://aircenter.az/en/post/joint-report-by-air-center-and-avim-why-are-there-no-azerbaijanis-in-the-modern-territories-of-armenia-1583#

**Бабаева Нармин Сахиб гызы,**
магистрант II курса кафедры уголовного права и криминологии
Бакинского государственного университета

## ПРОБЛЕМНЫЕ АСПЕКТЫ УГОЛОВНО-ПРАВОВОЙ БОРЬБЫ С ДЕПОРТАЦИОННЫМИ АКТАМИ, СОВЕРШЁННЫМИ В ОТНОШЕНИИ АЗЕРБАЙДЖАНЦЕВ

### РЕЗЮМЕ

В течение XX века в отношении азербайджанцев было осуществлено четыре крупных волны депортаций и массовых изгнаний с родных мест. Начиная с событий 1905-1906 гг. и трагедий 1918-1920 гг., затем планомерных переселений в 1948-1953 гг. в советский период и, наконец, полного изгнания азербайджанцев из Армянской ССР в 1988-1991 гг., десятки тысяч человек были насильственно лишены своей исторической родины. С точки зрения международного права эти деяния квалифицируются как тяжкие преступления – геноцид, этнические чистки и преступления против человечности. После обретения независимости Азербайджан ведет правовую борьбу на национальном и международном уровне с целью привлечения виновных к ответственности. В Уголовный кодекс включены статьи о геноциде и депортации населения, что создало юридическую основу для преследования таких преступлений. Однако в процессе борьбы с ними сохраняются серьезные проблемы. Спустя годы после событий большинство преступников скрываются за рубежом, а недостаток политической воли и двойные стандарты на международной арене привели к тому, что очень немногие лица понесли заслуженное наказание. Тем не менее, Азербайджан продолжает стремиться к восстановлению справедливости, собирая архивные документы, возбуждая новые уголовные дела, отстаивая право депортированных вернуться на родину и привлекая внимание международных организаций. В данной статье рассматривается история депортаций, совершенных против азербайджанцев, дается уголовно-правовая оценка этих действий, анализируются существующие препятствия на пути наказания преступников и обсуждаются меры, необходимые для восстановления справедливости.

**Babayeva Narmin Sahib,**
Second-year master`s student, Department of Criminal Law
and Criminology, Baku State University

## PROBLEMATİC ISSUES OF CRİMİNAL-LAW STRUGGLE AGAİNST DEPORTATİON ACTS COMMİTTED AGAİNST AZERBAİJANİS

**SUMMARY**

Throughout the 20th century, Azerbaijanis were subjected to four major waves of deportation and mass expulsion from their homelands. Starting with the events of 1905-1906 and the tragedies of 1918-1920, followed by the state-orchestrated relocations of 1948-1953 during the Soviet period, and finally the complete expulsion of Azerbaijanis from the Armenian SSR in 1988-1991, tens of thousands of people were forcefully displaced from their historic lands. In international law, these acts are considered egregious crimes – genocide, ethnic cleansing, and crimes against humanity. Since regaining independence, Azerbaijan has been engaged in legal efforts both domestically and internationally to hold the perpetrators accountable. The Criminal Code includes provisions on genocide and deportation of populations, providing a legal basis for prosecuting such crimes. However, there are serious challenges in this process. Decades after the events, most perpetrators remain beyond reach abroad, and a lack of political will and international double standards have meant that very few have been duly punished. Nonetheless, Azerbaijan continues to pursue justice by collecting archival evidence, launching new criminal cases, advocating for the right of return of the deported communities, and raising the issue in international forums. This article examines the history of the deportations committed against Azerbaijanis, provides a legal assessment of these acts, analyzes the existing obstacles to punishing the offenders, and discusses measures necessary to achieve justice for the victims.

**Redaksiyaya daxilolma tarixi: 31.01.2026**
**Təkrar işlənməyə göndərilmə tarixi: 17.02.2026**
**Çapa qəbul olunma tarixi: 19.02.2026**